# Məktubun izi ilə...

**Şəhidlər ünvansızdır**

Şəhidlik zirvəsi qəhrəmanlıq simvoludur. O, vətənə məhəbbətdən, torpağa, yurda bağlılıqdan irəli gəlir. Məhz bu sevgi, bir də 30 illik nifrət, qisas almaq əzmi Vətən müharibəsində qəhrəmanlığı alın yazısı seçən mərd oğullarımızı şəhidlik zirvəsinə yüksəltdi. Odlar yurdumuzun elə bir bölgəsi, elə bir şəhəri, kəndi tapılmaz ki, orada şəhid məzarları olmasın. Axı şəhidin ünvanı Vətəndir.

Məzarı Lənkəran şəhər Şıxəkəran kəndində yerləşən "Şeyx Zahid" qəbiristanlığında olan könüllü döyüşçümüz Murad Abbasov haqqında məlumat topladıq.

Murad Vasif oğlu Abbasov 1998-ci il aprelin 20-də Lənkəranın axarlı-baxarlı, gözəl təbiəti olan Şıxəkəran kəndində, zəhmətkeş bir ailədə dünyaya göz açıb. Çox sakit, mehriban, güləruz, şirin dil və zarafatcıllığı ilə ailəsinin, dost-tanışının, bir sözlə, onu tanıyan hər kəsin sevimlisi olub. O, 2004-cü ildə I Qarabağ Müharibəsi şəhidi Namiq Həsənov adına Şıxəkəran kənd tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2015-ci ildə isə həmin məktəbin 11-ci sinfini bitirərək müstəqil həyata qədəm qoyub. Daha sonra isə Hərbi Komissarlıq hesabına sürücülük peşəsinə yiyələnib. 2016-cı ilin aprelində hərbi xidmətə çağırılır. Gəncədə "N" saylı hərbi hissədə qulluq edir. Hərbi xidmət dövründə dəfələrlə ailəyə komandanlıq tərəfindən təşəkkür məktubları gəlib. Hərbi xidmətini 2017-ci ilin oktyabrında başa vurub, yenidən doğulduğu Şıxəkəran kəndinə qayıdır.

Murad öz xarakteri etibarilə göz açıb gördüyü təbiətə çox yaxın olub; Talış dağları kimi məğrur, Xəzərin qoynuna can atan Viləş-



çay kimi çoşqun, cənub meşələrinin möcüzəsi sayılan Dəmirağac kimi möhkəm olan bu oğlan təpədən-dırnağa, torpağa, Vətənə bağlı idi. Murad qəlbinə və düşüncəsinə hakim kəsilən "Vətəni sevmək imandandır", "Vətən haqqı - ana haqqıdır" kəlamlarının işığında boya-başa çatmışdı.

Uşaqlıqdan qəlbində düşmənə qarşı bir nifrət, qisas hissi olan Murad 2020-ci il sentyabrın 28-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən döyüşə çağırılır. Mənsurə ana deyir ki, oğlum bu xəbəri eşidən kimi sevinə-sevinə, gülə-oynaya döyüşə yollanır. Torpaqlarımızın müdafiəsinə yollanan Murad ilkin olaraq Ağcabədiyə gəlir və bir neçə günlük təlimdən sonra döyüş bölgəsinə göndərilir. Düşmənlərin tapdağı altında olan torpaqları azad etdikcə irəliyə addımlayan Murad Cəbrayıl və Qubadlı uğrunda gedən döyüşlərdə fəal iştirak edir və xüsusi qəhrəmanlıqlar göstərir. Komandirlərinin hər tapşırığına diqqətlə qulaq asır və döyüş əmrini yerinə yetirir.

Muradla çiyin-çiyinə döyüşən hərbiçi yoldaşlarının sözlərinə görə, onun hər sözü, hər kəlməsi şəhidliyin müqəddəs məqam olmasından bəhs edirdi. Şəhid olmağı özünə şərəf bilən Muradın ruhuna Vətən sevgisi, əməlinə cəsurluq, əqidəsinə dönməzlik hakim kəsilmişdi.

**Əsgərə məktub**

"Salam, igid əsgərim. Mən Fatimə. Mən inanıram ki, Qarabağı ermənilərdən qutaracaqsız və işğalda olan insanların bütün torpağı alındıqdan sonra yenə bütün insanlar yaşamağa davam edəcək".

**İmza: Fatimə Aslanova,**
**Qəbələ şəhəri.**

**İgid əsgər, möhkəm dayan!**

Bu məktubu yazanda Fatimə 3-cü sinifdə təhsil alırdı. Bu gün artıq 4-cü sinif şagirdidir. Müharibə dövründə əsgərlərimizə dəstək məqsədilə yazılan bu məktubları oxuyan igid oğullarımız daha da irəliyə gedir və hər gün bizlərə qələbə xəbərləri verirdilər. Hər məktubun bir əsgər sahibi var idi. Fati-



mənin məktubunun sahibi isə şəhid Murad Abbasov idi.

**Tanışlıq**

Şəhidimizin cibindən tapılan qanlı məktubun sahibinin axtarışında olan Mənsurə ana 2022-ci il mart ayının 11-də Qəbələ şəhərinə Fatimə və oxuduğu məktəb ilə daha yaxından tanış olmaq üçün qonaq olmuşdur. Bu münasibətlə isə Qəbələ şəhər 1 saylı tam orta məktəbin 4c sinfində tədbir keçirilmişdir. Tədbirdə iştirak edən Təhsil şöbəsinin müdiri Arifə Bayramova şəhidlərimizin qəhrəmanlıqlarından bəhs edib, sinif şagirdləri şəhid Murad Abbasovun ailəsi üçün hazırladığı şeirləri səsləndirib, daha sonra isə şəhidimizin ailəsi Fatimə Aslanovanın ailəsi ilə tanış olmaq üçün onun evinə yollanıblar.

2020-ci ilin 23 oktyabrında Murad Abbasov Qubadlı uğrunda gedən döyüşlərin birində qəhrəmancasına şəhid olur. Oktyabr ayının 24-də isə doğulub boya-başa çatdığı kəndinə nəşi gətirilir və dəfn olunur. Murad Vasif oğlu Abbasov "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb.

Ölümündən sonra yaşamaq hər kəsə nəsib olmayan səadətdir. Behiştə zəvvar olan Muradın da ölməzliyə yolu ölümdən keçdi. Tərcümeyi-halı qısa olsa da, qazandığı əbədiyyətlə adını Azərbaycanın Vətən müharibəsi tarixinə yazdı.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Tarix yazanlar tarixə dönür

***Düşmən qarşısında inamla dayanıb, Vətənimizi, torpaqlarımızı qoruyarkən şəhid olan igid qardaşlarımızın xatirəsini əbədi tutaraq yad etmək, unutdurmamaq bizlərin ən ümdə vəzifələrindən biridir.***

**Doğum günləri**

Vətən Müharibəsində qəhrəmancasına şəhid olan Bunud kənd sakini mayor **Natiq Əjdər oğlu İsmayılovun (05.03.1980-18.10.2020),** Böyük Pirəli kənd sakini əsgər **İsmayıl Yaşar oğlu Qurbanovun (06.03.2001-28.09.2020),** Seyidqışlaq kənd sakini müddətdən artıq hərbi qulluqçu **Aqşin Elman oğlu Qədirzadənin (10.03.1999-18.12.2020),** Bum qəsəbə sakini əsgər **Adəm İkram oğlu Heydərovun (26.03.2000-13.10.2020)** qısa ömür tarixlərində doğum günləridir.

İsmayılov Natiq Əjdər oğlu–Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Onun göstərdiyi qəhrəmanlıqlara görə sağlığında Prezident İlham Əliyevin sərəncamına əsasən III dərəcəli "Qüsursuz xidmətə görə", 26.06.2008 tarixində, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, 26.06.2013 "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, 26.06.2018 - "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olunub. Ölümündən sonra isə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və "3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunub.

Qurbanov İsmayıl Yaşar oğlu–Füzuli uğrunda gedən döyüşlər zamanı şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Qədirzadə Aqşin Elman oğlu–Göygöl rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub. Döyüşlər zamanı itkin düşüb və cənazəsi tapılaraq dəfn olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

Heydərov Adəm İkram oğlu–qismən səfərbərlik çağırışı ilə döyüşlərə yollanıb. O, Tərtər istiqamətində gedən döyüşlər zamanı şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Şəhidlik elə bir zirvədir ki, ünvanı əbədiyyətdir. Şəhid olmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaq, əqidə vardır. Elə buna görə də onlar şüurlu şəkildə ölümü gözə ala bilirlər. Şəhidlər ölməz, unudulmaz! Vətənin ağır günlərində canından, qanından keçən bütün şəhidlərimizin müqəddəs ruhu qarşısında dərin hörmət və ehtiramla baş əyirik. Allah rəhmət eləsin!

**"Qəbələ"**

# Yaxşı ki, duman var– axı duman günəş gətirər

İnsanın simasına kədər qonanda onun üreyində daima qar-boranın təlatüm etdiyini, payız yağışının məskən saldığı, lal buzların buz soyuqluğu, cisminin isə dumana bürünməsini gözlərindən oxumaq olur. Ancaq onunla təskinlik tapmaq olar ki, heç olmasa cismini saran duman var. Axı duman varsa günəş də var... Günəş isə daima soyuq və sazaqla mübahisə, müharibə aparar, isti şəfəqləri azacıq da olsa şaxtaya təsir edər. Bax şəhid ailələri şaxtası heç vaxt getməyən, buzu əriməyən ürək daşıyanlardır. Dumana bürünmüş cisimləri isə yalnız başqa bir övladının xeyir məclisi azacıq da olsa günəş şəfəqi kimi isidər və üzlərində kədərlə sevincin qarışıq izləri hiss olunar. Bax, şəhid ailələrində toy məclisi keçirilərsə...şəhid ailələrinin könüllərində məhz belə sevinc işartıları yaranar.




Qəbələnin şəhid övladı Elməddin Mustafayevin bacısı Sədaqət Mustafayevanın toy məclisi şəhid əzizlərinin qəlbindəki sal buzların üzərinə bir günəş şəfəqinin saçmasına bənzədi. İki ilə yaxındır ki, toya, şənliyə həsrət könülləri birləşdirdi bu toy. Şəhid bacısı gəlin köçürdü, qəlbində, gözündə qəm yüklü sevinc işartıları...

Məclis başlamazdan əvvəl şəhid Elməddin Mustafayevin məzarı onun əzizəri və şəhid ailələrinin nümayəndələri, qazilər tərəfindən ziyarət edildi, dualar oxundu.

Toy məclisi başqa xeyir məclislərindən fərqlənirdi. Axı bu məclisin iştirakçılarının çoxu şəhid ailələri, qazilər və müharibə iştirakçıları idi. Sədaqət təkcə Elməddinin deyil, bütün vətənsevər oğulların bacısı idi. Hələ müharibə başlamazdan əvvəl nişanlı olan Sədaqət Mustafayeva həm də müddətdən artıq hərbi xidmətdə olan Vüsal Mustafayevlə ailə qururdu. Məclis Azərbaycanın himni ilə başladı, şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla anıldı. Toyun aparıcısı da bu gün fərqli idi. İlahiyyatçi Mehman Şəfiyev şəhid ailələrinin qəlbindəki kədərə rəğmən onların üzündə göz yaşı içində bir sevinc yaratmaq üçün hər sözünə məsuliyyətlə yanaşırdı.

Sədaqət isə... Gəlin paltarında öncə qardaşının şəkli ilə rəqs etdi. Elməddinin silahdaşları və şəhadətə qovuşan dostlarının valideynləri göz yaşlarının gəlin libasına axdığı Sədaqətlə bahəm rəqsə qoşuldular.

Əgər Elməddin yaşasaydı... Məclis tamamilə başqa-el toyunun adət-ənənələri çərçivəsində keçirilərdi. Bacısının əlini buraxmazdı qardaşı... Gəlin köçən bacı isə boynu bükük, "bənövşə" kimi, üzündə qəm kölgəsi, ağ libasın sevincini göz yaşına qatmazdı... Ancaq o gün göy qübbəsində bütün şəhid ruhları Elməddinlə bahəm sevinirdi, ruhlar bacı toyunda "rəqs" edirdi. Şəhid əzizlərinin "qəm buzunu" azacıq da olsa əritsin deyə. Elməddin Mustafayevin atasının, anasının, göyərçin kimi ağ libaslı bacısının qəlbinə sevinc şəfəqləri paylasın deyə...

Bu toy fərqli bir toy idi... Qazilər əsgər formasında, şəhid Elməddinin şəkillərinin plakat kimi əllərdə oynaması, ən başlıcası Azərbaycan və Türkiyə bayraqlarının uca tutulması; bir sözlə, ürəklərdəki sal buzların azacıq da olsa sınmağa başladığı bir məqam idi... Şəhid bacısı, Sədaqət xanım, xoşbəxt olun və unutmayın ki, həyat özü bir sınaqdır. Sən isə bu sınaqdan daima qalib ruhla, qalib adı ilə özünü tanıt, şəhid Elməddinin ruhunu şad et!

**Şəhla BAYRAMOVA,**
**Qəbələ şəhəri.**